

**Bülbül adına məktəb Saatlı uşaq musiqi məktəbi 1967-ci ildən fəaliyyət göstərir. İlk vaxtlar burada fortepiano və tar ixtisasları üzrə 60 nəfər şagird oxuyub. Onların təlim-tərbiyəsi ilə 4 nəfər məşğul olub. 1968-ci ildə məktəbdə qarmon, 1970-ci ildə isə kamança şöbələri də açılıb. Tədricən müəllim və şagirdlərin də sayı artıb. 1987-ci ildə bu göstərici müvafiq surətdə 16 və 188 nəfərə çatdırılıb...**

# BÖYÜK SƏNƏTKARIN ADINA LAYİQ

**Maraqlı cəhət odur ki, 70-ci illərin məzunlarından olan Kamal Gülüşov bir neçə il sonra musiqi məktəbinə qayıdıb və bir vaxt ona dərs deyən müəllimlərlə çiyin-çiyinə çalışmağa başlayıb. Hazırda məktəbdə çalışan müəllimlərin müəyyən qismi də vaxtı ilə burada oxuyublar.**

Məktəbin uğurlarına gəlincə o, əsasən Kamal müəllimin adı ilə bağlıdır. Bu haqda sizə aşağıda məlumat verəcəyik. Hələlik isə Hacı Kamalla bağlı müəyyən məqamları nəzərinizə çatdırırıq.

Gülüşov Kamal Əlikram oğlu 1960-cı il iyunun 1-də anadan olub. 1967-1977-ci illərdə Saatlı şəhər S.Vurğun adına 1 saylı orta məktəbdə, 1971-1975-ci illərdə isə uşaq musiqi məktəbində (qarmon ixtisası üzrə) təhsil almışdır.

Azərbaycan Dövlət Politexnik İnstitutunun (Texniki Universitet), Bakı Mədəni-maarif Texnikumunun və Azərbaycan İctimai-Siyasi Universitetinin məzunudur. 1977-ci ildən mədəniyyət sahəsində çalışır. 1992-ci ildən Qarabağ müharibəsi veteranıdır. 1997-ci ildən Bülbül adına Saatlı uşaq musiqi məktəbinin direktorudur. Yaxşı işi nazirlik tərəfindən qeyd olunmuş və fəxri fərmana layiq görülmüşdür.

Ailəlidir. 2 övladı var.

Yuxarıda qeyd etdiyimiz kimi K.Gülüşovun təyinatı ilə məktəbin fəaliyyətində bir dönüş yaranmışdır. Belə ki, arxada qalan 13 il müddətində burada ciddi nizam-intizam yaradılmış, müəllimlərin şagirdlərə qarşı diqqət və qayğısı artmış, məktəbin ab-havası yaxşılaşdırılmış, təhsilin səviyyəsi yüksəldilmiş, şagirdlərə tam sərbəstlik verilmiş, şagird-müəllim-valideyn əlaqələri genişləndirilmişdir.

Hazırda məktəbdə fortepiano, tar, kamança, qarmon, xanəndəlik və xor ixtisasları üzrə 294 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 34 nəfər müəllim məşğul olur.

Qabaqcıl müəllimlərdən Ramella İsmayılova, Tuti Mirzəyeva, Pərvanə Həsənova, Sərvanə Qəhrəmanova, Aynurə Əliyeva, Şəbnəm Ələkbərova, Günay Qədirova, İdayət Kazımov, Mirdamət Qiyasov, Sərhəd Muradov, Oruc Bayramov və başqaları öz şəxsi nümunələri ilə şagirdlərdə milli və ümumbəşəri sərvətlərə, mənəvi dəyərlərə hörmət və məhəbbət aşılayaraq onların əsaslı və dərin musiqi təhsili almaları üçün səy və bacarıqlarını əsirgəmirlər.

Məktəbin şagirdləri dəfələrlə uşaqlar arasında keçirilən respublika müsabiqələrində fəal iştirak etmiş, festivalların laureatı olmuşlar. Səidə Veysəlova, Musa Zeynalov, Rasim Aslanov, Ravil Şıxəliyev, El-



çin Əliyev, Kənan Heydərov, Könül Məmmədova, Üzeyir Ağayev, Ədalət Qanbayev, Aydın Hüseynzadə, Anar Rzayev, Allahqulu Ağayev 1998-ci ildən 2010-cu ilədək Lənkəran, Astara, Şirvan, Göyçay, Bərdə, Kürdəmir və Bakı şəhərində keçirilən müsabiqələrdə məharətlə çıxış edərək festivalların laureatı adını qazanmışdır.

2002-ci ildə Astara şəhərində keçirilən Respublika müsabiqəsində məktəbin şagirdi Musa Zeynalov uğur qazanaraq final mərhələyə vəsiqə qazanmış, Heydər Əliyev adına sarayda çıxış edərək diploma layiq görülmüşdür. Eyni uğuru Musa bir il sonra Respublika üzrə təşkil olunan III Uşaq folklor müsabiqəsində də qazanmışdır.

2003-cü ildə Respublika üzrə təşkil olunan üçüncü Uşaq folklor müsabiqəsində Musa Zeynalov yenə də final mərhələyə vəsiqə qazanaraq Bakı şəhərində Azərbaycan Dövlət Dram teatrında final mərhələdə uğurla çıxış edərək diploma layiq görülmüşdür. 2004-cü ildə Respublika üzrə təşkil olunan dördüncü Uşaq folklor müsabiqəsində məktəbin şagirdi Kənan Heydərov gümüş medal və YUNESEF-in diplomuna, Üzeyir Ağayev, Ədalət Qanbayev YUNİSEF diplomlarına layiq görülmüşdür. Məktəbin xor kollektivi 2003-cü ildən başlayaraq Respublika üzrə keçirilən baxış müsabiqəsində uğurla çıxış edir. 2003-2004 və 2005-ci illərdə Mədəniyyət Nazirliyinin müvafiq əmrləri ilə xor kollektivinin çıxışlarına yüksək qiymət verilmişdir.

2006-cı ildə Astarada keçirilən Uşaq muğam müsabiqəsində 247 nəfər iştirakçı arasından məktəbin şagirdi Aydın Hüseynzadənin ifaçılıq məharəti diplomla qiymətləndirilmişdir. Məktəbin şagirdi Vüsal Quliyev isə müsabiqənin fəxri fərmanını almışdır. Hər iki şagirdə rayon rəhbərliyi və rayon Gənclər və İdman idarəsi tərəfindən də mükafatlar verilmişdir.

2008-ci ildə Astara şəhərində keçirilən Uşaq Muğam İfaçılarının dördüncü Respublika müsabiqəsində Hüseynzadə Aydın diploma layiq görülmüşdür.





2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin Bərdə şəhərində keçirdiyi "İstedadlı uşaqlar" Respublika müsabiqəsində məktəbin tar ixtisası üzrə şagirdi Anar Rzayev uğurlu çıxışına görə diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

2009-cu ildə Şirvan şəhərində keçirilən uşaq xor kollektivlərinin VI Respublika müsabiqəsində məktəbin xor kollektivi fəxri fərmanla təltif edilmişdir.

2010-cu ildə Astara şəhərində keçirilən V Respublika müsabiqəsində məktəbin şagirdi Allahqulu Ağayev uğurlu çıxışına görə diploma layiq görülmüşdür.

2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin Kürdəmir şəhərində keçirdiyi "İstedadlı uşaqlar" müsabiqəsində məktəbin xanəndəlik ixtisası üzrə şagirdi Allahqulu Ağayev uğurla çıxış edərək diplom və qiymətli hədiyyə ilə mükafatlandırılmışdır.

2010-cu ildə ATV televiziya kanalının keçirdiyi "Xalq ulduzu" yarışmasında məktəbin xanəndəlik ixtisası üzrə şagirdi Musa Zeynalov II yerə çıxmış və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

**Musiqi məktəbinin "Səda" ansamblının fəaliyyəti barədə ayrıca danışmalıyıq. "Səda" 1998-ci ildə yaranıb. Elə həmin ildən başlayaraq ansambl rayonumuzun bütün qaçqın düşərgələrində, ümumtəhsil məktəblərində, hərbi hissələrdə, müharibə veteranları, geniş ictimaiyyət qarşısında müxtəlif, maraqlı konsert proqramlarıyla çıxışlar edir, rayonun bütün ədəbi-bədii tədbirlərində yaxından iştirak etməyə səy göstərir...**

A. QOCAYEVA